# Avşarlar

**I Şah Təhmasib dövrü (1524 – 1576)**

Təhmasib çağında da Avşarların çoxu Kohgiluyə və Xuzistanda yaşayırdılar. Hicri 943-cü (1527-1528) ildə Xorasandakı əmirlərdən Avşar Mustafa Sultan, Şamlu Zeynal Xan və yenə Şamlu Çəkirgə Sultan ilə birlikdə Firuzkuhda Özbəklər tərəfindən öldürülmüşdür. İraqeyn Səfəri əsnasında Kohgiluyə valisi Əlvənd Xan min nəfər və iki tövlə at ilə Təhmasibin yanına gələrək onu sevindirmişdi. Ancaq ertəsi il, dəfələrcə itaətsizlik göstərdiyi suçu ilə öldürülüb, mövqeyi, Şah Ruh Xan ünvanı ilə Mənsur Bəyin nəvəsi və Həsən Sultanın oğlu Məhəmmədi Bəyə verildi. Hicri 955-ci (1548-1549) ildə Kohgiluyə valisi yenə Avşardan Mahmud Xan olub, gərək ki, Mənsur Bəy ocağından idi. Mahmud Xanın buyruğunda üç min atlı vardı. Hicri 957-ci (1550) il olaylarında adı keçən Avşar Rüstəm Bəyi, hicri 964-cü (1557) ildə eyni yerin valisi olaraq görürük. Avşardan, bir qolun da Xuzistanda yaşamaqda olduqları söylənmişdi. Bunlar Gündüzlü Avşarından idilər. Xuzistan Avşarlarının başında hicri 946-cı (1539-1540) ildə Qan Qara ləqəbi ilə tanınmış olan Çulu Bəy oğlu Mehdi Qulu Sultan bulunurdu. Mehdi Qulu Sultan eyni ildə Təhmasibin əmri ilə qardaşı Sevindik Bəy tərəfindən öldürüldü. Rumlu Həsən Bəyə görə, hicri 948-də (1541-1542) Xuzistandakı Dizful şəhərinə gələn Şah, buranı Avşardan Heydər Qulu Sultana vermişdir. Bu xəbəri bir il sonra verən Qaffari isə şəhərə Avşardan Əbü'l-Fəth Sultanın təyin edildiyini söyləyir. Digər bir Avşar əmiri də hicri 943-də (1536-1537) Kirman valisi bulunan Şah Qulu Sultan idi. Şah Qulu Sultan, uzun bir zaman Kirman valiliyində bulunmuşdur; adı son dəfə hicri 972-ci (1564-1565) il xəbərləri arasında keçir. Hicri 977-ci (1569-1570) ildə Kirmanda yenə Avşardan Yaqub Bəyi vali olaraq görürük ki, hər halda Şah Qulu Sultanın yaxın bir qohumu idi. Avşarlara mənsub çağın ən böyük əmiri şübhəsiz ki, Qorucu Başı Sevindik Bəydir. Sevindik Bəyi Təhmasibin ən mötəbər mərkəz əmirlərindən biri olaraq görürük; hicri 969-cu (1561) ildə öldüyü zaman yaşı doxsanı keçirdi. Özü haqqında, «Gilan sofularından idi» deyilir ki, bu söz ilə hər halda onun İsmayılın Gilanda ikən yanında bulunanlardan olduğu ifadə edilmək istənir. Pir Qulu Bəy, Rüstəm Bəy və Məhəmməd Bəy kimi Avşar əmirlərinin adları hicri 955 – 957-ci (1549 – 1550) illərə aid hadisələrdə keçir. Digər böyük bir Avşar əmiri də Aslan Bəy idi. Aslan Bəyin Avşarın Ərəşlü (Araşlu) obasından olduğu bildirilir. Ərəşlü (Araşlu) bir yer adı ilə ilgili kimi görünür. Aslan Bəy hicri 975-dəki (1567-1568) Gilan səfərinə qatıldı. Eyni səfərdə bulunan Avşardan İskəndər Bəyə də Gilanda dirlik verildi. Yenə bu boydan Sincab Sultan (hicri 957 = 1550-də) və Dana Bəy oğlu Allah Qulu Bəy də (hicri 963 = 1556) Xorasanda dirliklərə sahib idilər. Əlqas Mirzənin yaxınlarından Məhəmməd Bəyin də Avşardan olduğunu vurğulayaq.

İskəndər Bəy Təhmasibin ölümü əsnasında altı Avşar əmirinin adını verir. Bunlardan biri az öncə adı keçən Ərəşlü (Araşlu) Aslan Sultandır. İskəndər Bəy Aslan Sultanın Avşarın böyük əmirlərindən, çox əsgər sahibi və Sultan Əhməd Mirzənin lələsi olduğunu bildirir. Digər Avşar əmirlərinə gəlincə, bunlar Kohgiluyədə 10,000 alaçıq Avşarın başı Xəlil Xan, Savə valisi Mahmud Sultan, Kirman valisi Yaqubun qardaşı Yusif (ancaq bu əsnada hələ Kirmana getməmişdi), Hezarcərib valisi İskəndər Bəy idilər. Bu sonuncusu Xəlil Xanın qohumu olub, sonra Kohgiluyə valisi olmuşdur. Xorasandakı Fərah və Əsfuzar valisi Yegən Sultan ilə yenə Xorasanda bir yerin valisi Xosrov Sultanın da Avşardan olduğu bildirilir.

**II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü (1576 – 1587)**

Avşarların yurdları İranın güney tərəfində bulunur, günbatıdan gündoğuya doğru bir zolaq biçimində uzanırdı. Yəni Avşarların dirliyi Kohgiluyədən başlayır, İsfahan, Kirmandan keçərək Heratın güneyindəki Fərah və Əsfuzaradək gedirdi. Bunlar arasında Avşarın ən topluca olaraq yaşadığı yer Kohgiluyə idi. İsfahan bölgəsində Ərəşlü (Araşlu) Avşarından bir qolun yurd tutduğundan öncə danışılmışdı. Yenə Ərəşlüdən (Araşlu) bir bölük ilə Usalu Avşarının Qəzvinə yaxın bir yerdə oturduqları anlaşılır. Sultan Məhəmmədin hökmdarlığının sonunda, yəni hicri 995-ci (1587) ildə Kirman Vəli Xan, Yəzd isə oğlu Bəktaş Xan, Əbərkuh Osmanlılara iltica edən Qulu Bəyin oğlu Yusif Xan kimi Avşar əmirləri tərəfindən idarə edilirdi. Bəktaş Xan anılan tarixdə (hicri 995) zorbalıqla Yəzdi əlinə keçirmiş, dustaq olan Yusif Xanı da sərbəst buraxdırıb Əbərkuha göndərmişdi. Kohgiluyədəki ana Avşar topluluğuna gəlincə, bunların başında bulunan Xəlil Xan oğlu Şah Qulu (Xan) ilə Əbdüllətif Bəy oğlu Həsən (Xan) arasındakı düşmənçilik sürməkdə idi.

**I Şah Abbas dövrü (1587 – 1629)**

Araşdırmalarımızdan çıxan sonuclara görə, Avşarın aşağıda adları sayılan obalarından, İmanlu Avşarı istisna olmaqla, başda Ərəşlü (Araşlu), Gündüzlü olmaq üzrə, digərlərinin İrandakı əsl yurdları Kohgiluyə və qismən Xuzistan idi. Bunların buraya Ağqoyunlu fəthi sonucunda, böyük bəyləri Mənsur Bəyin idarəsində Anadoludan gəldikləri daha öncə söylənmişdi.

Şah Abbas taxta keçdiyi ildə (hicri 995 = 1587) başlıca Avşar əmirləri bunlardı: Kirman valisi Vəli Xan, Yəzdə zorbalıq etmiş olan oğlu Bəktaş Xan, Vəli Xanın əmisi oğlu Əbərkuh valisi Yusif Xan, Kohgiluyədə Mənsur Bəyin nəvələrindən Xəlil Xanın oğlu Şah Qulu Xan və Əbdüllətif Bəy oğlu Həsən Xan, yenə oradakı Ərəşlü (Araşlu) oymağının başında Əmir Arslan Sultanın oğlu Təhmasib Qulu Xan. İskəndər Xanın qardaşı Bədir Xan da Abbasın buyruğunda Qəzvinə gələn əmirlər arasında bulunmaqda idi.

Yuxarıda adı keçən əmirlərdən Yusif Xan (və ya Sultan) Abbasın hüzuruna gəldi və ona qorucubaşılıq verildi. Yusif Xan, Sultan Məhəmməd çağındakı qorucubaşılardan Qulu Bəyin oğlu idi. Qulu Bəy, öncə bəhs edildiyi kimi, Həmzə Mirzə tərəfindən həyatına son veriləcəyini xəbər alaraq qardaşı ilə birlikdə Təbriz valisi Cəfər Paşaya sığınmış və bu əsnada Türkiyədə (Rum) olub, hələ sağ idi.Yusifin qorucubaşı olmasında, atasının dostu olan Mürşid Qulu Xanın amil olduğu anlaşılır. Buna rəğmən Yusif Xan, Mürşid Qulu Xanı ortadan qaldırmaq istəyən əmirlərin fəsad hərəkətlərinə qatıldı. Bu hərəkatın uğursuzluqla sonuclanması üzərinə Yusif Xan da tutuldu. Ancaq Mürşid Qulu Xanın xahişi ilə öldürülməyərək bir qalada dustaq edildi. Qorucubaşılıq, yuxarıda adı keçən İskəndər Xanın qardaşı Bədir Xana verildi. Bədir Xan da hicri 997-də (1589) Astarabad valiliyinə təyin edildi və qorucubaşılığa Vəli Xan gətirildi. Kirman valiliyinə də oğlu Bəktaş Xan təyin edildi. Dustaq bulunan Yusif Xana gəlincə, Vəli Xanın şəfaəti ilə sərbəst buraxıldı və hətta Əbərkuh valiliyinə göndərildi.

Hicri 998-ci (1590) ildə Şah Abbas, Ərəşlü (Araşlu) Təhmasib Qulu Xana Həmədan valiliyini verərək onu Nəhavəndin Osmanlılardan geri alınmasına məmur etdi. Ancaq Təhmasib Qulu Xan bu vəzifəsində uğurlu ola bilmədi.

Kirman və Yəzd valisi Bəktaş Xan, daha öncə bir vəsilə ilə də ifadə edildiyi kimi, bacarıq və qüdrətini aşan, böyük xəyallar daşıyır, Anadolunu belə fəth etməyi düşünürdü. Bu üzdən oğlunun adını Səlim qoymuşdu. Ancaq bu qədər böyük xəyallar daşıyan Bəktaş Xan, Fars valisi Zülqədər Yaqub Xan tərəfindən asanca ortadan qaldırıldı. Yaqub Xan Kirmanı özü-özlüyündən Yusif Xana verdi. Yaqub, Bəktaş Xandan fərqsiz bir əmir idi. O da Şaha qarşı itaətsizcə hərəkətlərdə bulunurdu. Bu nədənlə Şah

Abbas Yaqub Xanı aradan götürmək üçün hicri 999-da (1591) Farsa yönəldi. Yaqub, İstəxr qalasına qapandı. Abbas, Möhrdar Zülqədər Əsləməs Xan başçılığında Zülqədər və Fars əsgərini İstəxrin zəbtinə məmur etdiyi kimi, Şirazda ikən əmirül-ümara Qaramanlu Fərhad Xan başçılığında bir gücü də Kirman valisi Yusif Xan üzərinə göndərdi. Yusif Xan, Fərhad Xanın özü Şaha əfv etdirəcəyinə söz verməsi üzərinə təslim oldu. Kirman əyalətinə təkrar Vəli Xan təyin edildi. Ancaq bir qəsəbə Alplu Avşarından İsmayıl Sultana (və ya Xan) verildi. Yusif Xan, Abbas tərəfindən əfv edildisə də, aqibəti haqqında heç bir bildiyə sahib deyilik.

Şah Abbas, Şirazda ikən Avşar Həsən Xan ilə Avşar Şah Qulu Xan, Kohgiluyədən hüzuruna gəlmişdilər. Bunlar bir-birlərinə düşmən idilər. Şah Qulu Xan, Abbasın təhriki ilə Həsən Xan tərəfindən öldürüldü. Həsən Xan tək başına Kohgiluyə valisi oldu isə də hicri 1003-cü (1594-1595) ildə qardaşı və oğulları ilə birlikdə tutulub özü öldürüldü, qardaşı və oğulları də dustaq edildilər. Şah Abbas hicri 999-cu (1591) ildə Şiraza gedərkən, itaətsizcə davranışlarından dolayı Ərəşlü (Araşlu) Avşarı əmiri Təhmasib Qulu Sultanı tutub öldürtdüyü kimi, oğlu Zəhr-i Mar Sultanı da eyni aqibətə uğratmışdı.

Şah Abbasın ölümü sırasında Avşardan üç əmir görünməkdədir. Bunlar da üç Avşar obasının başında bulunurlar. Adı keçən hökmdar çağında Avşarlar başlıca bu obalara ayrılmaqda idilər: Gündüzlü, Ərəşlü (Araşlu), Alplu, Əbərlü, İmanlu Avşarı.

a. Gündüzlü: Bu oba əslində Hələb Türkmənləri arasındakı Gündüzlü Avşarının bir qoludur. Gündüzlü Avşarı Kohgiluyədə və Xuzistanda yaşayırdı. Sonraları bunlardan bir bölük Xorasanda Abivərd dolaylarına, bir bölük də Urmiya yörəsinə göndərildi.
b. Ərəşlü (Araşlu): Ərəşlülər də əslində Kohgiluyəli, digər bir deyimlə Mənsur Bəy Avşarlarına daxil idilər. Şah Məhəmməd çağının son illərində (hicri 992-995 = 1584-1587) Usalu ilə birlikdə İsfahan tərəflərində yaşayırdılar. Əmir Aslan Bəyin, II İsmayıl və Sultan Məhəmməd zamanında bunların başı olduğundan öncə danışılmışdı. Abbasın hökmdarlığının başında Ərəşlü (Araşlu) Təhmasib Qulu Bəyin İsfahan tərəflərində bulunduğu bilinir. Təhmasib Qulu Bəyin həyatında və ya bəlkə ondan sonra (hicri 998-də) Ərəşlünün ağsaqqalı, yəni başı Hacı Mehdi Qulu idi. Ərəşlünün bu illərdəki qüdrətli bəylərindən birinin də Zəhr-i Mar Sultan olduğu görünür. Şah Abbas davranışlarından xoşlanmadığı Zəhr-i Mar Sultanın tutulmasına və Ərəşlü (Araşlu) oymağının sürgün edilməsinə Gözü Böyüklü Qənbər Sultanı məmur etmişdi. Anadoludan az bir zaman öncə gəlməsi güman olunan Qənbər Sultan Ərəşlü oymağını, Huvar, Rey və Semnan tərəflərinə sürgün etdi. Zəhr-i Mar Damğana yollanaraq oymaqdaşı Bədir Xana sığındı isə də Bədir Xan onu Abbasa göndərdi.
   Ərəşlüdən (Araşlu) bir bölüyün sonra Urmiya bölgəsindəki boydaşlarının yanlarına getdiyi anlaşılır.
c. Usalu: Usaluların Şah Abbas çağından öncə İsfahan tərəfində yaşadıqları görünməkdədir. Abbas dövründə Kürdüstandakı Kavərud hakimi İmam Qulu Sultan, Usaludan olduğuna görə bu çağda orada oturmaqda idilər.
d. Əbərlü: Bunların da Şah Abbas dövründən öncə Qəzvin bölgəsində yaşadıqları görünür. Abbas bunları Abivərdə göndərmiş və başlarına da Gürcü Cəmşid Sultanı qoymuşdu. Sultan Məhəmməd zamanındakı böyük əmirlərdən Avşar Qulu Bəyin, Abbasın hökmdarlığının ilk illərindəki əmirlərdən Qorucu Başı Qulu Bəyin oğlu Yusif Xan ilə Kirman valisi Vəli Xan və oğlu Bəktaş Xanın bu obadan olmaları daha ehtimal olunandır. Abivərddəki Əbərlülərə sonraları Gündüzlüdən də bir bölük qatılmışdır. Avşar Nadir Şahın mənsub bulunduğu Qırxlu oymağının Əbərlü və ya Gündüzlüdən çıxmış olması ən qüvvətli ehtimaldır.
e. Alplu: Alplu Avşarı da əslində Hələb Türkmənləri arasındakı Avşarların bir qoludur. Bunların da Kohgiluyə Avşarlarından olması çox ehtimaldır. Alplu Avşarından İsmayıl Xanı tanıyırıq ki, hicri 998-də (1590) Kirmanda ona bəzi yerlər verilmişdi. İsmayıl Xan hicri 1003-cü (1594-1595) ildə Kazerun valisi idi. İsmayıl Xanı daha sonraları hicri 1011 – 1013-cü (1602 – 1605) illərdə

Xorasandakı Fərah şəhəri valisi olaraq görürük. İsmayıl Xandan öncə Fərah və Əsfuzar valisi yenə Alpludan Ər Doğdu Xan idi.

f. İmanlu Avşarı: Bu oba Türkiyədəki Dulkadirli (Zülqədərli) eli arasındakı böyük İmanlu Avşarının bir qoludur. Bu qolun İrana Şah Məhəmməd və hətta Abbas çağının ilk illərində gəlmiş olduğu irəlü sürülə bilər. Çünki daha öncə adı heç bir qaynaqda vurğulanmır. Bu obadan tanıdığımız ilk əmir Qasım Sultan olub hicri 1002-ci (1593-1594) ildə adı keçməkdədir. Özü anılan tarixdə Həmədan bölgəsində bir yerin valisi idi. Bağdad valisi Uzun Əhməd Paşanı hicri 1012-ci (1603-1604) ildə Lur hakimi ilə birlikdə yenib əsir alan Qasım Sultan, 1623-də Mosulun fəthinə qatılmış və xan ünvanı ilə şəhərin valiliyinə təyin edilmişdir. Ancaq ertəsi il Osmanlı ordusunun yaxınlaşması üzərinə, əmrindəki əsgərin azlığından və vəba yoluxmasından şəhəri boşaldıb çəkilmək məcburiyyətində qalmışdır. Şəhərin yenidən fəth edilməsi üçün 1625-də göndərilən Səfəvi əmirləri arasında Qasım Xanın oğlu Kəlb-i Əli Sultanı görürük. Bu məqam Qasım Sultanın, ən kiçik qüsurlara belə göz yummayan Abbas tərəfindən vəzifədən çıxarıldığını və ya daha güman ki, öldürüldüyünü meydana qoyur. Hicri 1037-ci (1627) ildə Kəlb-i Əli Xan, Urmiya valiliyində bulunurdu. Qasım Sultanın Bayram Xan adlı digər bir oğlu vardı. Daha sonrakı yüzillərdə Urmiya bölgəsində gördüyümüz Avşarların önəmli bir qismi İmanlu Avşarı və Urmiya valiləri də adı keçən Qasım Xanın soyundan gəlmişlər.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**